

# Şanlı Azərbaycan Ordusu

**Bu il Azərbaycan ordusunun yaranmasının 104 illiyi qeyd olunur. 2020-ci ilin payızında - 44 günlük müharibədən sonra Azərbaycan dünyaya sübut etdi ki, çox güclü orduya sahibdir. Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə qəhrəman ordumuz tarixdə silinməyəcək iz buraxdı. Dünya dövlətləri şahid oldu ki, ərazisi və əhali sayına görə çox da böyük olmayan dövlət necə nəhəng qüdrətə sahib ola bilərmiş.**

**26 İyun Azərbaycanda Silahlı Qüvvələr Günü kimi qeyd olunur. Əvvəlcə Silahlı Qüvvələrin tarixinə nəzər yetirək. Azərbaycanın ilk Milli Ordusu 1918-ci ildə yaradılmağa başladı. 1918-ci il iyunun 26-da ilk hərbi hissə olan Əlahiddə Korpus yaradıldı. Həmin il avqustun 1-də AXC-nin Hərbi Nazirliyi təsis edildi. Dekabrın 25-də general Səməd bəy Mehmandarov hərbi nazir, general-leytenant Əliağa Şıxlinski nazir müavini təyin edildilər. Milli Ordu qısa müddətdə Osmanlı dövlətinin Qafqaz İslam Ordusu ilə birlikdə Bakını və ətraf qəzaları erməni-bolşevik işğalından xilas etdi.**

Bu hərbi birləşmələr Muğanda və Əsgəranda milli hökumətə qarşı baş vermiş qiyamları yatıraraq, Qazaxda Azərbaycan sərhədini pozmuş erməni ordu hissələrini darmadağın etdi. AXC süqut etdikdən sonra bolşevik hökuməti tərəfindən Milli Ordu ləğv edilərək, rəhbərlərinin əksəriyyəti Nargin adasına aparılıb güllələndi.

Çar Rusiyası dövründə azərbaycanlı gənclər əsasən hərbi texnikanın olmadığı, döyüş təlimlərinin aparılmadığı yerlərdə, tikinti-inşaat taborlarında hərbi xidmət keçirdilər. Bunun məqsədi azərbaycanlıların hərbi biliklərə və döyüş bacarıqlarına yiyələnməsinin qarşısını almaq idi. Ümummilli lider Heydər Əliyev hakimiyyətə gəldikdən sonra bu məqsədyönlü siyasətə qarşı tədbirlər görməyə başladı. 1971-ci ildə onun təşəbbüsü ilə C.Naxçıvanski adına ixtisaslaşdırılmış Hərbi Məktəb yaradıldı. 24 noyabr 1997-ci il tarixdə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə məktəbin adı dəyişdirilərək C.Naxçıvanski adına Hərbi Lisey adlandırıldı. Ulu öndərimiz azərbaycanlı gənclərin Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərinə, eləcə də SSRİ-nin digər hərbi məktəblərinə güzəştli şərtlərlə qəbul olunmasına nail oldu.

Ümummilli lider Heydər Əliyevin Azərbaycan Ordusuna göstərdiyi diqqət və qayğının nəticəsində vahid komandanlıq prinsipi bərqərar edildi, ordunun madditexniki təminatı əvvəlki illərdən fərqli olaraq əhəmiyyətli dərəcədə yaxşılaşdırıldı, hərbi hissə və birləşmələrin maddi-texniki, tibbi və digər vasitələrlə təmin edilməsi təşkil olundu, maliyyə-təsərrüfat fəaliyyəti nizama salındı.

Ulu öndər hərbi təhsil sisteminin daha da inkişaf etdirilməsi məqsədilə 1999-cu il fevralın 20-də Hərbi Akademiyanın yaradılması haqqında Fərman imzaladı. Prezidentin 20 avqust 2001-ci il tarixli Fərmanı ilə Silahlı Qüvvələr üçün kadr hazırlığının təkmilləşdirilməsi məqsədilə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzi yaradıldı, Müdafiə Nazirliyinin sistemində fəaliyyət göstərən məktəblər Azərbaycan Ali Dənizçilik Məktəbi və Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi adlandırıldı.

Beləliklə, ümummilli liderin qətiyyəti sayəsində vahid komandanlığa tabe olan nizami ordu yaradıldı, qeyri-qanuni silahlı dəstələr ləğv edildi, orduda peşəkarlığı artırmaq, ixtisaslı hərbçilər yetişdirmək siyasəti həyata keçirildi. Peşəkar və hazırlıqlı zabitlərin Türkiyə Silahlı Qüvvələrində təhsil almalarına start verildi.

İlk dəfə Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 18 sentyabr tarixli Fərmanı ilə təsis edilmiş və 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan ordusunun yaradılması barədə Azərbaycan Ali Sovetinin qərarının qəbul edildiyi tarix - 9 Oktyabr Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü elan edilmişdi. Prezident Heydər Əliyevin 22 may 1998-ci il tarixli Fərmanına əsasən həmin fərman qüvvədən düşərək, "Əlahiddə Azərbaycan korpusu"nun təşkil olunduğu gün - 26 İyun Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü elan olundu və hər il bu tarixin rəsmi dövlət bayramı kimi qeyd edilməsi qərara alındı.

Ümummilli lider Heydər Əliyev siyasətinin layiqli davamçısı İlham Əliyev 2003-cü ildə hakimiyyətə gəldikdən sonra ordu quruculuğunda yeni dövr başladı.

Ali Baş Komandan hər zaman haqlı olaraq belə hesab edib ki, Vətəni qoruyan, onun təhlükəsizliyini təmin edən, düşmən hücumlarına və təxribatlarına özünü sipər edən şəxslərin sosial rifahı, yaşam səviyyəsi yüksək olmalı, onlar maddi çətinlik, mənzil problemi ilə üzləşməməlidir. Bu məqsədlə dövlətimizin başçısı mütəmadi surətdə hərbçilərin sosial təminatının gücləndirilməsi ilə bağlı fərmanlar imzalayıb və göstərişlər verib. Belə ki, 2011-ci il 28 dekabrda Prezident İlham Əliyev Azərbaycan Ordusunun hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə Fərman imzaladı. Bu fərman nəticəsində Azərbaycan Ordusunun 20 təqvim ili və daha çox qüsursuz xidmət etmiş hərbi qulluqçuları dövlət vəsaiti hesabına mənzillə təmin edildi.

Azərbaycan Ordusunun yaranmasının 100 illiyi münasibətilə 2018-ci il 26 iyunda Bakıda möhtəşəm parad keçirildi. Bu parad ordu quruculuğunda qazanılan uğurların təsdiqi oldu. Paraddan sonra müasir Azərbaycan Ordusunun vəziyyəti, döyüş qabiliyyətini daha aydın təsəvvür etmək mümkün oldu. Böyük iqtisadi və siyasi əhəmiyyət kəsb edən bu parad sübut etdi ki, Azərbaycan Ordusu güclüdür, qüdrətlidir, torpaqlarını qorumağa və işğaldan azad etməyə qadirdir.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin ordumuzun inkişafına daim qayğı göstərməsi, onun daha da qüdrətli olması üçün bütün tədbirlərin həyata keçirilməsi sayəsində güclü ordumuz daha da təkmilləşir. Elə bunun nəticəsidir ki, 2020-ci ildə qüdrətli ordumuz illərdir qarşısında duran mühüm vəzifənin öhdəsindən layiqincə gəldi. 30 ilə yaxın düşmən tapdağında olan müqəddəs torpaqlarımızı geri qaytardı.

Prezident İlham Əliyev hər zaman sülh tərəfdarı olaraq münaqişənin danışıqlar yolu ilə həll edilməsinə nail olmaq istəmişdi. Lakin bu danışıqlar heç bir nəticə vermədiyi üçün Ali Baş Komandanımızın əmri ilə ordumuz səfərbər oldu. Qəlbində Vətən sevgisi, Vətən eşqi olan minlərlə qeyrətli oğullarımız könüllü olaraq ordu sıralarına yazıldılar. Ali Baş Komandanımızın 2020-ci il 27 sentyabrda verdiyi əmrlə qismən səfərbərlik elan olundu. Rəşadətli ordumuzun qüdrətli əsgərləri, hərbçiləri misli görünməmiş qəhrəmanlıq nümayiş etdirdilər. Hətta Şuşa döyüşləri də buna bariz nümunədir.

Müzəffər Ali Baş Komandan İlham Əliyev noyabrın 8-də xalqımıza Şuşanın azad edilməsi müjdəsini verdi. O, xalqa müraciətində Şuşanın işğaldan azad edilməsinin tarixi əhəmiyyətindən danışarkən demişdi: "Mən bu gün ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, ulu öndərin ruhu şaddır! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!"

Bu gün Azərbaycan Ordusu dünyada 50 ən güclü ordu sırasındadır. Azərbaycan ordusu 44 günlük müharibə ərzində "Harop" zərbə pilotsuz aparatlarından, o cümlədən İsraillə birgə Azərbaycanda istehsal olunan "Zərbə" dronlarından və digər PUA-lardan, o cümlədən "Bayraktar TB2" zərbə pilotsuz təyyarələrindən geniş istifadə etdi. Təkcə Bayraktar TB2 dronları vasitəsilə Azərbaycan Ermənistanın bir milyard dollar dəyərində hərbi texnikası məhv edildi.

Bu möhtəşəm qələbədən sonra Bakıda Prezident İlham Əliyevin təşəbbüsü ilə Hərbi Qənimətlər Parkı yaradıldı. Bura gələn hər bir şəxs Silahlı Qüvvələrimizin gücünə bir daha şahid olur. Bu parkda toplanan texnika Ermənistanın acınacaqlı məğlubiyyətini nümayiş etdirir. Burada nümayiş olunan texnika məhv edilmiş və qənimət kimi götürülmüş düşmən texnikasının kiçik bir hissəsini təşkil edir.

Vətən müharibəsində şanlı Qələbə xalqımızın igid övladlarının qanı-canı bahasına qazanıldı. Şəhidlərimizin, qazilərimizin və müharibə iştirakçılarımızın qəhrəmanlığı dövlətimiz və xalqımız tərəfindən yüksək qiymətləndirilir. Sentyabrın 27-si Prezidentin Sərəncamı ilə şəhidlərimizin xatirəsinə Anım Günü elan olunub. Xalqımız və bütün dünya azərbaycanlıları şəhidlərin əziz xatirəsini ehtiramla yad edir.

**Nuridə ƏLİZADƏ,**
**hüquqşünas.**